**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏRŞAD HƏSƏN OĞLU HƏSƏNOV**

# AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ HƏYATI JAN BATİST TAVERNYENİN «SƏYAHƏTNAMƏ»SİNDƏ

Ixtisas: 5503.02 – Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI-2013**

Dissertasiya Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **Ş.F.Fərzəliyev**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **A.B.Baxşəliyev**

tarix üzrə fəlsəfə doktoru **D.M.Əzimli**

**Aparıcı təşkilat** – Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış 5503.02 – "Vətən tarixi" ixtisası üzrə Dissertasiya Şurasının "20"_04_ 2013-cü il tarixli iclasında, saat ______ keçiriləcəkdir.

**Ünvan:** AZ-1148, Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"___________ 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının Elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor: R.C.Süleymanov**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** Dövlət müstəqiliyinin yenidən bərpa olunması ilə Azərbaycan tarixinin öyrənilməsi istiqamətində keyfiyyət baxımından tamamilə yeni bir mərhələ başladı. Sosial-iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrində özünü daha qabarıq şəkildə biruzə verən yeni keyfiyyət dəyişiklikləri Azərbaycanın zəngin tarixi keçmişinin araşdırılmasında da əsaslı dönüş yaratdı. 70 il sovet imperiyasının mənqənəsində sıxılmış, müxtəlif qadağa və yasaqlarla, mərkəzdən diktə edilən «qəlib»lərlə üzləşmiş Azərbaycan tarixçiliyi müstəqilliyin bərpasından sonra xalqın tarixi keçmişini milli maraqlar və dövlətçilik aspektində araşdırmaq, yol verilmiş təhrifləri aradan qaldırmaq imkanı əldə etdi.

Səfəvilərin dövlətçilik tarixi vətən və xarici tarixşünaslıqda geniş tədqiqat obyektinə çevrilsə də, bu dövlətin XVII əsrin 30-60-cı illər tarixi nisbətən zəif araşdırılmışdır. Bu dövrün siyasi prosesləri yerli qaynaqlarda, əsasən narrativ mənbələrdə geniş əks olunsa da, sosial-iqtisadi münasibətlərin və mədəni həyatın təsvirinə demək olar ki, ötəri toxunulmuşdur. Yerli mənbələrdəki bu boşluğu dövrün Avropa səyyahlarının gündəliklərində əksini tapmış məlumatlar tamamlayır.

XVI-XVII əsrlərdə böyük coğrafi kəşflər nəticəsində okean ticarət yollarından kənarda qalmış Azərbaycan, Volqa - Xəzər ticarət yolu ilə Şərqə can atmağa çalışan İngiltərə, Fransa, Almaniya, Rusiya kimi nəhəng Avropa dövlətlərinin maraq dairəsinə çevrilmişdi. Bununla yanaşı, okean ticarət yollarını öz nəzarəti altında saxlayan və qüdrətli dəniz dövlətləri olan Portuqaliya, Hollandiya və İspaniya da hərbi – strateji və iqtisadi nüfuzlarını qorumaq, genişləndirmək baxımından Səfəvi dövləti ilə münasibətlərə xüsusi önəm verirdilər. XV əsrdən Azərbaycana başlamış səyyah, elçi, tacir və missioner axınları XVI, xüsusilə də XVII əsrdə daha da intensiv xarakter almışdı. Avropa səyyah və elçiləri öz maraqları naminə Səfəvi dövlətinin sosial-iqtisadi, siyasi, hərbi qudrəti, əhalinin maddi və mənəvi mədəniyyəti haqqında ətraflı məlumatlar toplayırdılar. 1631-1668-ci illərdə altı dəfə Şərq ölkələrinə səyahət etmiş və dəfələrlə Azərbaycanda olmuş fransız səyyahı J.B.Tavernye (1605-1689) səyahətləri zamanı topladığı məlumatları ilk dəfə 1676-cı ildə Parisdə cap etdirmişdi[1]. J.B.Tavernyenin «Səyahətnamə»si XVII əsrin 30-60-cı illərində

[1] J.B.Tavernyer. Le siks voyages de J.B.Tavernier en Turqie en Perse et aix Indes. Paris, 1676.

Azərbaycanın sosial-iqtisadi, siyasi tarixinin, inzibati idarə sisteminin, maddi və mənəvi mədəniyyətinin öyrənilməsi, eləcə də bəhs edilən dövrdə Azərbaycanın xarici iqtisadi əlaqələrinin, idxal və ixrac gücünun, ölkə ərazisindən keçən daxili və beynəlxalq ticarət marşrutlarının müəyyənləşdirilməsi baxımından da aktuallıq kəsb edir.

«Səyahətnamə» yerli qaynaqlarda olduqca səthi, bəzi hallarda isə ümumiyyətlə əksini tapmamış bir çox məsələlərin, xüsusilə də təsərrüfat həyatı, sənətkarlıq, adət-ənənə, ayin və mərasimlər, bir sözlə etnoqrafik problemlərin öyrənilməsi baxımından da xüsusi önəm kəsb edir.

Tavernyenin «Səyahətnamə»sinin ətraflı araşdırılması, elmi-tarixi aspektlə bərabər praktiki əhəmiyyətə də malikdir. Belə ki, Azərbaycan müsətəqilliyini bərpa etdikdən sonra yenidən aparıcı dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələr qurmuş və həmin dövlətlərin maraq dairəsinə çevrilmişdir. Səyyah gündəliklərinin araşdırılması, Avropa dövlətlərinin əsl məqsəd və məramlarının üzə çıxarılması, tarixin verdiyi dərslərdən nəticə çıxarılması, müstəqil Azərbaycan Respublikasının uğurlu xarici siyasət xətti yeritməsi nöqteyi-nəzərindən son dərəcə böyük əhəmiyyətə malikdir.

**Tədqiqatın xronoloji çərçivəsi**: Mövzunun xronoloji çərçivəsi XVII əsrin 30-60-cı illərini əhatə edir. Xronoloji çərçivənin bu cür götürülməsi fransız səyyahı J.B.Tavernyenin Səfəvilər dövlətinə ilk və sonuncu səyahətinin 1631-1668-ci illəri əhatə etməsi ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, bu və ya digər hadisələrin şərhi, bəzi məlumatların dəqiqləşdirilməsi ilə bağlı olaraq XVII əsrin əvvəlləri və sonuna aid materiallara da müraciət olunmuşdur.

**Mövzunun öyrənilmə səviyyəsi:** Səfəvilər dövrü Azərbaycan tarixinin siyasi, ictimai, sosial-iqtisadi, mədəni həyatı vətən tarixşünaslığında və xarici şərqşünaslıqda geniş araşdırma obyektinə çevrilmiş, tədqiqatlar zamanı XVI-XVII əsr səyyah gündəliklərindəki məlumatlara müraciət edilmiş olsa da, J.B.Tavernyenin «Səyahətnamə»si müstəqil tədqiqat mövzusu kimi araşdırılmamışdır. E.Ə.Aslanova namizədlik dissertasiyasında J.B.Tavernyenin «Səyahətnamə»sini də tədqiqata cəlb etsə də, onun Azərbaycanla bağlı bütün məlumatlarını hərtərəfli araşdıra bilməmişdir[1].

Orta əsrlər Azərbaycan tarixinin tədqiqatçılarından olan İ.P.Petruşevski öz tədqiqatlarında Tavernyenin məlumatlarından qismən istifadə etmiş-

---

[1] Aslanova E.Ə. «Azərbaycan XVII əsr Avropa səyyahlarının təsvirində» (J.Şarden, J.B.Tavernye, J.Streys). Avtorefarat. Bakı, 2008

dir[1]. Səfəvişünas Ə.Ə.Rəhmani XVI əsrin sonu - XVII əsrdə Səfəvi dövlətinin sosial-iqtisadi durumu, ticarət əlaqələri, mədəni həyatının şərhi ilə bağlı J.B.Tavernyenin «Səyahətnamə»sində əksini tapmış bir sıra faktlara istinad etmişdir[2]. Müəllifin XVII əsrdə Səfəvilər dövlətində sikkə zərbi, pul dövriyyəsi haqqındakı məlumatları birbaşa Tavernyenin gündəliyinə istinadən qələmə alınmışdır. Tədqiqatçı S.Aşurbəyli Tavernyenin «Səyahətnamə»sinin fransız nəşrinə müraciət etmiş və Şirvan tarixinə aid məlumatları tədqiqata cəlb etmişdir[3].

Orda əsr Azərbaycan şəhərlərində sənətkarlıq, sənətkar təşkilatları, vergi sistemi ilə bağlı araşdırmalarında tanınmış tarixçi M.Heydərov[4] Tavernyenin XVII əsr Azərbaycan şəhərləri haqqındakı məlumatlarına yer ayırmış, bəzi istilahların, xüsusilə də «boniçe» anlayışının mahiyyətinin dəqiqləşdirilməsində onun mülahizələrindən yararlanmışdır.Tarixçi S.Onullahi[5] Tavernyenin Təbriz şəhərinin ticarət əlaqələri, sənətkarlığı, memarlıq abidələrinin təsviri, mədəni həyatı ilə bağlı verdiyi məlumatlardan yetərincə istifadə etmişdir. Tarixçi S.Məmmədov[6] XVII əsrdə Azərbaycanın bəzi şəhərlərinin sosial-iqtisadi həyatı, ticarət əlaqələri, vergi sistemi kimi problemlərinin araşdırılması ilə bağlı Tavernyenin məlumatlarına istinad etmişdir.

Səfəvilər dövlətinin təsərrüfat həyatına həsr edilmiş araşdırmasında N.Süleymanov da[7] XVII əsrdə Azərbaycanın kənd təsərrüfatı, sənətkarlığı, maliyyə sistemi, vergi sisteminin şərhi ilə əlaqədar J.B.Tavernyenin məlumatlarından yararlanmışdır. XVI-XVII əsrlərdə Azərbaycanın Cənub şəhərlərinin və Azərbaycan Səfəvi dövlətinin sosial-iqtisadi həyatını və beynəlxalq əlaqələrini tədqiq etmiş A.Baxşəliyev[8] Tavernyenin məlumatlarından da faydalanmışdır. Tədqiqatçı Z.Həsənalıyev Səfəvı

---

[1] Петрушевский И.П. Азербайджан в XVI-XVII вв. // Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-299.

[2] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII вв. (1590-1700 гг.). Баку, 1981.

[3] Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку, 1983.

[4] Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII веке. Баку, 1967; Города и городское ремесло Азербайджана в XIII – XVII вв. Баку, 1982.

[5] Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri. Bakı, 1982.

[6] Мамедов С.А. Азербайджан по источникам XV – первой пол. XVIII вв. Баку, 1983.

[7] Suleymanov N. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı, 2006.

[8] Baxşəliyev A. Güney Azərbaycan şəhərlərinin mədəni həyatı səyyah gündəliklərində, Bakı, 2003; Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı, 2009.

dövlətinin təsərrüfat həyatını öyrənərkən Tavernyenin «Səyahətnamə»sinə də müraciət etmişdir[1].

XVII əsrdə Səfəvilər dövlətinin inzibati idarə sistemi ilə bağlı tədqiqatlarında Tavernyenin gündəliyinə müraciət edən Z.Bayramlı[2] Səfəvi dövlətinin mərkəzi və yerli idarəçilik təsisatları, ordu quruluşu kimi mühüm problemlərin araşdırılmasında dövrün digər qaynaqları ilə yanaşı J.B.Tavernyenin «Səyahətnamə»sinə də müraciət etmiş və bəzi məsələlər haqqında səyyahın ziddiyyətli fikirlərinə də toxunmuşdur. Azərbaycan tarixinə aid ümumiləşmiş ədəbiyyatlarda da Tavernyenin qeydlərinə müraciət olunmuş, bu və ya digər problemlərlə bağlı məlumatlar təhlil edilmişdir[3].

Azərbaycanın sosial-iqtisadi və mədəni həyatının ayrı–ayrı problemləri Tavernyenin «Səyahətnamə»sinin materialları əsasında araşdırılarkən Səfəvilər dövrünün tarixinə həsr edilmiş digər tədqiqatlardan da istifadə olunmuşdur. Bu tədqiqatçılar içərisində Y.M.Mahmudov, O.Əfəndiyev, Ş.Fərzəliyev[4] və digərlərini  qeyd etmək olar.

XVI-XVII əsrlər Azərbaycan tarixinin bir çox problemləri xarici tarixşünaslıq və şərqşünaslığında da diqqətdən kənarda qalmamışdır. Bu istiqamətdə rus və İran tarixşünaslığında da bir sıra mühüm tədqiqat əsərləri qələmə alınmışdır. Problemin araşdırılmasında rus və İran alimlərinin əsərlərindən də istifadə olunmuşdur. Qeyd etmək istərdik ki, İran tarixçilərinin tədqiqatlarına müraciət edərkən Səfəvi dövlətinin bir sıra konseptual məsələlərinə diqqətlə yanaşmaq vacibdir..

**Tədqiqatın mənbə bazası:** XVII əsrin 30-60-cı illərində Azərbaycanın sosial-iqtisadi və mədəni həyatının öyrənilməsində əsas mənbə olaraq Tavernyenin “Səfərnamə”si götürülmüşdür. Jan Batist Tavernye 1605-ci ildə Parisdə xəritəşünas Qabriel Tavernyenin ailəsində anadan olmuşdur. Tavernye  1631-1668-ci illərdə Şərqə altı səfər etmiş, doqquz dəfə Səfəvi ölkəsində olmuşdur[5]. Səfərləri nəticəsində Tavernyenin tərtib etdiyi yol gündəliyi praktik olaraq Şərq dövlətlərinin sosial-iqtisadi həyatı, maddi və

---

[1] Həsənalıyev Z.M. XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri. Bakı, 2007.

[2] Bayramlı Z.H. Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı, 2006.

[3] Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Bakı, 2006;  Azərbaycan tarixi, 7 clddə. III cild, Bakı, 1999.

[4] Mahmudov Y. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991;  Azərbaycan diplomatiyası. Bakı, 1996;  Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı,1993; Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakı, 1983;

[5] Tavernyer J.B. XVII əsr ortalarında, Türkiye üzerinden seyahat. İstanbul, 1980, s.7-8

mənəvi mədəniyyətinə aid məlumatları özündə əks etdirən “Səyahətnamə” xarakterli kitabdır. Tavernyenin «Səyahətnamə»si Şərq ölkələri haqqında mükəmməl coğrafi, iqtisadi, etnoqrafik məlumatları əks etdirdiyi üçün tez bir vaxtda müxtəlif Avropa dillərinə çevrilərək dəfələrlə nəşr olunmuşdu. “Azərbaycanın sosial-iqtisadi və mədəni həyatı J.B.Tavernyenin “Səyahətnamə”sində mövzusu araşdırılan zaman Tavernyenin “Səyahətnamə”sinin İran tarixçisi Əbuturab Nuri tərəfindən fars dilinə tərcümə edilmiş variantı əsas götürülmüşdür[1]( “Səfərname-yi Tavernye”). Bununla yanaşı, tədqiqat prosesində Tavernye “Səyahətnamə”sinin Ə. Gültəkin [2] və T. Tuncdoğan tərəfindən türk dilinə tərcümə olunmuş variantlarından da istifadə olunmuşdur[3]. Onu da qeyd edək ki, İran tədqiqatçısı Ə. Nuri tərcüməsindən fərqli olaraq türk mütəxəssisləri Tavernyenin “Səyahətnamə”sini bütünlüklə deyil, əsasən Osmanlı imperatorluğu ilə bağlı olan hissələrini tərcümə etmişlər.

Qeyd edək ki, Tavernyenin «Səyahətnamə»si bir sıra nöqsanlardan da xali deyildir. Belə ki, «Səyahətnamə»də Tavernyenin şəxsi müşahidələrini eşitdikləri məlumatlardan fərqləndirmək demək olar ki, mümkün deyildir. Digər tərəfdən, səyyahın Şərq ölkələrinə uzun bir dövrü (1631-1668-ci illəri) əhatə edən altı səfərinin gündəliklərində xronoloji ardıcıllıq nəzərə alınmamışdır. Bütün bu çatışmazlıqlara rəğmən Tavernyenin «Səyahətnamə»si Səfəvi imperatorluğuna daxil olan xalqların, o cümlədən Azərbaycanın, həmçinin Osmanlı və Böyük Moğol dövlətlərinin XVII əsr tarixinin, etnoqrafiyasının öyrənilməsi üçün çox qiymətli qaynaqlardan biridir.

Tavernyenin «Səyahətnamə»si quruluşuna görə giriş, 5 kitab və əlavələrdən ibarətdir. «Səyahətnamə»nin birinci kitabı demək olar ki, Qafqaz bölgəsinə aiddir. Bu kitabda İstanbul – Ərzurum – Qars – İrəvan – Naxçıvan – Əsədabad – Araz çayı – Təbriz – Ərdəbil – Xalxal – Miyanə – Zəncan – Sultaniyyə –Savə – Qum –İsfahan haqqında məlumatlar öz əksini tapmışdır. İkinci kitabda Bağdad – Bəsrə – Hörmüz – İsfahan marşurutu boyu yerləşən şəhər, qəsəbə və limanlar, üçüncü kitabında Azərbaycanın və Gürcüstanın şəhərləri, karvan yolları şərh olunmuşdur. Dördüncü kitab Səfəvi dövlətinin ərazisi, əyalətləri, bağçılıq, heyvandarlıq, balıqçılıq, quşçuluq sahələri, memarlıq abidələri, dini inanclar, məhərrəmlik mərasimi,

[1] سفرنامه تاورنیه، ترجمه: ابوتراب نوری، اصفهان: 1346

[2]Tavernye J.B. XVII asr ortalarında Türkiye üzerinden seyahat. İstanbul, 1980.

[3]Tavernye J.B. Seyahetnamesi. Çeviren Teoman Tuncdoğan. İstanbul, 2006.

qurban bayramı, səyyahın İsfahanda şah sarayında qəbulu və sarayda baş verən hadisələrə həsr olunmuşdur.

Tavernyenin Səfəvilər dövlətinə səyahətləri Şah I Səfi (1629-1642), Şah II Abbas (1642-1666) və Şah Süleymanın (1666-1694) hakimiyyəti illərinə təsadüf etmişdir. Gündəliyin beşinci kitabı qeyd olunan hökmdarların hakimiyyəti dövrünün siyasi hadisələrinə, məhkəmə orqanları və polis idarələrinin iş prinsipi və fəaliyyətinə, Hindistana gedən ticarət yollarının təsviri və s. kimi məsələlərə həsr olunmuşdur. Tavernyeni dövrün digər səyyahlarından fərqləndirən xüsusiyyətlərdən biri ondan ibarətdir ki, səyyah Səfəvi dövlətində gördüyü bir sıra abidələr, şəhərlər, geyimlər və s. haqqında rəsmlər vermiş və Səfəvi dövlətinin xəritəsini tərtib etmişdir.

Mövzunun araşdırılmasına Tavernyenin «Səyahətnamə»si ilə yanaşı, XVII-XVIII əsrlərə aid olub Səfəvilər dövlətinin tarixinə həsr olunmuş çoxsaylı səyyah gündəliklərinin materialları, nəsrani qaynaqlar və sənədli mənbələr də cəlb edilmişdir. Bu qaynaqlar Tavernyenin məlumatlarının mötəbərliyini yoxlamaq baxımından mühüm əhəmiyyət kəsb edir.

1623-cü ildə Rusiyadan Azərbaycana göndərilmiş F.Kotovun tərtib etdiyi hesabatda Azərbaycanın həm şimal, həm də cənub şəhərləri, onların iqtisadi durumu, karvan ticarət yolları, şəhərsalma işi, memarlıq abidələri, xalq adət-ənənələri haqqında dəyərli məlumatlar özünə yer almışdır[1]. XVII əsrin ilk rübündə Azərbaycanda səfərdə olmuş Pyetro della Valle Səfəvi dövlətində Azərbaycan dilinin statusu, şəhərsalma və memarlıq işi, xalq musiqisi və oyunları, ticarət həyatı, şəhərlərin idarə quruluşu haqqında çox qiymətli məlumatlar vermişdir[2]

1636-1639-cu illərdə Azərbaycanda olmuş alman alimi A.Oleari Səfəvilər dövründə Azərbaycanın sosial-iqtisadi həyatı, maddi və mənəvi mədəniyyəti, dövlət idarəçilik təsisatları haqqında geniş və mötəbər məlumatlar vermişdir[3]. 1646-1654-cü illərdə iki dəfə Azərbaycanda olmuş türk səyyahı Ö.Çələbi[4] əhalinin məşğuliyyəti, kənd təsərrüfatı, sənətkarlıq, şəhərlərin salınma tarixi, topoqrafiyası, memarlıq abidələri, ziyarətgahlar, xalqın adət və ənənələri, mətbəx mədəniyyəti, geyimləri və s. haqqında

---

[1] Хожение Купца Федота Котова в Персию. М., 1958.

[2] پیترو دلاواله، سفرنامه پیترو دلاواله، ترجمه و حواشی از شعاع الدین شفا، تهران: 1348

[3] Адам Олеарий. Подробное описание путешествия Голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах. М., 1870.

[4] Ö.Çələbi. Səyahətnamə. II c. İstanbul, 1314; VII kitab. İstanbul, 1970; "Səyahətnamə". (türk dilindən işləyən S.Onullahi ) Bakı, 1977; Z.Bayramlı, Əzizli B.O. Azərbaycan E.Çələbinin 1654-cü il "Səyahətnamə"sində. Bakı, 2000.

müfəssəl məlumatlar vermişdir. Qeyd etmək lazımdır ki, E.Çələbinin və J.B.Tavernyenin Azərbaycana səyahətləri təxminən eyni dövrə təsadüf etdiyindən onların ölkəmizin iqtisadi və mədəni həyatı, adət-ənənələri, və digər məlumatları müqayisə və paralellər aparmaq baxımından çox əhəmiyyətlidir.1664-1670 və 1671-1677-ci illlərdə iki dəfə Şərq ölkələrində səfərdə olmuş fransız səyyahı J.Şardenin «Səyahətnamə»si digər səyyah gündəliklərindən fərqli olaraq elmi-tədqiqat xarakteri daşıyır. Səyyahın Azərbaycan haqqındakı məlumatları öz orjinallığı ilə fərqlənir (Səfərname-yi Şarden) [1]. Müəyyən paralellər və müqayisələr aparmaq məqsədi ilə XVII əsrin 80-90-cı illərində Azərbaycanda səfərdə olmuş alman səyyahı E. Kempfer [2] və İtaliya səyyahı Cemeli Karerinin [3] gündəliklərinə, XVII-XVIII əsrlərin bir sıra yerli salnamələrinə: o cümlədən Məhəmməd Yusif Qəzvininin, İsgəndər bəy Münşinin, XVII əsr salnaməçisi Arakel Təbrizli[4] və başqalarının əsərlərinə də müraciət edilmişdir. Narrativ qaynaqlar içərisində Səfəvi dövlətinin mərkəzi və yerli idarə strukturu, ordu quruluşu və sair məsələlərlə bağlı çox unikal və mötəbər məlumatları ilə seçilən Mirzə Səmianın «Təzkirət əl-müluk» əsərini də xüsusi qeyd etmək lazımdır[5].

Azərbaycan arxivlərində olan və XV-XVII əsrlərə aid rəsmi sənədlərin də xüsusi əhəmiyyəti var. Səfəvilər dövründə vergi və mükəlləfiyyətlər sistemi ilə bağlı qiymətli mənbə olan bu sənədlər T.M.Musəvi tərəfindən tərcümə edilərək, nəşr olunmuşdur [6]. A.D.Papazyanın Matenadaranda saxlanılan XVII əsrə aid rəsmi sənədlərin bir qismini nəşr etməsi Səfəvilər dövrü mülkiyyət münasibətləri, vergi siyasəti, daşınmaz əmlakın alqı-satqısı və s. kimi problemlərin öyrənilməsi üçün mühüm əhəmiyytə malikdir[7].

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd J.B.Tavernyenin «Səyahətnamə»sində əksini tapmış məlumatlar əsasında XVII əsrin 30-60-cı illərində Azərbaycan iqtisadiyyatının

---

[1] شاردن، سیاحتنامه شاردن، ترجمه محمد عباسی، ج. 2-4، تهران: 1336 .

[2]. در دربار شاهنشاه ایران، تالیف انگلبرت کمپفر، ترجمه کیکاووس جهانداری، تهران: 1350

[3] جملی کارری، سفرنامه کارری، ترجمه دکتر عباس نخجوانی و عبدالعلی کارنگ، تبریز: 1348

[4] محمد یوسف قزوینی، خلد برین، تهران: چاپخانه شیرین، 1372؛

اسکندر بیگ ترکمان، تاریخ عالم آرای عباسی، جلد 1-2، تهران: 1350؛

Аракел Даврижеци. Книга историй. Перевод с арм-го Л.А.Ханларян. М., 1973;

[5] میرزا سمیعا، تذکرة الملوک، به کوشش دکتر سید محمد بیر سیاقی، تهران، 1368 .

[6] Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı, 1965; Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVII əsərlər). Bakı, 1977

[7] Персидские документы Матенадарана (1601-1650). Указы т.1. вып.2, Ереван, 1959.

aparıcı sahələri olan əkinçilik, heyvandarlıq, sənətkarlıq və ticarətin ümumi mənzərəsini, inkişaf dinamikasını və özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirmək, Səfəvi dövlətinin mərkəzi və yerli idarəçilik təsisatlarını, idarəetmə aparatında vəzifə iyerarxiyasını, şəhər idarə sistemini, sosial təbəqələr, onların qarşılıqlı münasibətlərini, mülkiyyət formaları, vergi və mükəlləfiyyətlər sistemini araşdırmaq, Azərbaycan dilinin statusu, təhsil müəssisələri, təhsil prosesi, memarlıq abidələri, şəhərsalma və tikinti texnologiyası, incəsənətin ayrı-ayrı sahələrinin inkişaf səviyyəsini, xalqın adət-ənənələrini, ayin və mərasimlərini təsvir və təhlil etməkdən ibarətdir. Bu məqsədi gerçəkləşdirmək üçün qarşıda aşağıdakı vəzifələr qoyulub:

- J.B.Tavernyenin «Səyahətnamə»si əsasında XVII əsrin 30-60-cı illərində Azərbaycan iqtisadiyyatının vəziyyətini, onun inkişafına təsir göstərən əsas amilləri üzə çıxarmaq;
- Əkinçilik və heyvandarlıq təsərrüfatının aparıcı sahələrini müəyyənləşdirmək;
- Orta əsr Azərbaycan şəhərlərində sənətin müxtəlif növlərinin inkişaf dinamikasını izləmək;
- Toxuculuğun inkişafına təsir edən başlıca səbəbləri aşkar etmək;
- J.B.Tavernyenin «Səyahətnamə»si əsasında Azərbaycanın daxili və xarici ticarət əlaqələrini, yerli və beynəlxalq əhəmiyyətli ticarət marşrutlarını müəyyənləşdirmək, ölkənin idxal və ixrac potensialını araşdırmaq;
- Sosial təbəqələrin xarakteristikasını vermək, torpaq mülkiyyəti, vergi və mükəlləfiyyətlərin növlərini və mahiyyətini açıqlamaq;
- Dövlətin vergi siyasətinin əsas prioritetlərini müəyyənləşdirmək;
- Səfəvi dövlətinin mərkəzi və yerli idarəçilik aparatının strukturunu, idarəetmə sistemində vəzifə iyerarxiyasını müəyyənləşdirmək;
- XVI əsrlə müqayisədə XVII əsrdə Səfəvi inzibati-bürokratik aparatının şişməsinin səbəb və nəticələrini təhlil etmək;
- XVII əsrdə Səfəvi dövlətində Azərbaycan türk dilinin rolunu və statusunu müəyyənləşdirmək, təhsil müəssisələrinin növlərini, elmin ümumi inkişaf səviyyəsini dəqiqləşdirmək;
- Azərbaycan incəsənətinin memarlıq, şəhərsalma, rəssamlıq, xəttatlıq və s. sahələrinin ümumi mənzərəsini yaratmaq, onların inkişafına əngəl törədən səbəbləri açıqlamaq;
- Azərbaycan xalqının adət-ənənə, ayin və mərasimlərinin, geyim tərzi, mətbəx mədəniyyətinin və s. tarixi-etnoqrafik təhlilini vermək.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Tarixşünaslıqda ilk dəfə olaraq J.B.Tavernyenin «Səyahətnamə»si kompleks şəkildə tədqiqat obyektinə çevrilmişdir;

- Azərbaycan iqtisadiyyatının aparıcı sahələri hərtərəfli araşdırılmış, onun inkişafını ləngidən əsas səbəblər müəyyənləşdirilmişdir;

- XVII əsrin II yarısında Azərbaycan iqtisadiyyatında başlamış tənəzzül prosesinin ilkin simptomlarının XVII əsrin 50-ci illərində meydana çıxması aydınlaşdırılmışdır;

- Dövrün digər qaynaqlarının müqayisəli təhlili əsasında Tavernyenin bəzi Azərbaycan şəhərləri haqqındakı məlumatlarının ziddiyyətli xarakter daşıması aşkara çıxarılmışdır;

- Tavernyenin Səfəvi dövlətində mülkiyyət münasibətləri sisteminin mahiyyətinə dərindən nüfuz etməməsi və bu səbəbdən bəzi yanlışlıqlara yol verməsi dəqiqləşdirilmişdir;

- Tavernyenin «Səyahətnamə»sində Azərbaycanın sosial-iqtisadi və mədəni həyatı ilə bağlı yeni materiallar elmi dövriyyəyə cəlb edilmişdir;

- Avropa ölkələrinin manufaktura istehsalı olan toxuculuq məhsullarının Səfəvi ərazisinə XVII əsrin ortalarından başlanmış axınının yerli toxuculuğun inkişafında əsas əngəllərdən birinə çevrilməsi vurğulanmışdır;

- Səfəvi hökmdarlarının vergi sistemində əsas diqqəti gömrük siyasətinə yönəltmələrinin səbəbləri müəyyənləşdirilmişdir;

- Tavernyenin «Səyahətnamə»sinin Azərbaycanın XVII əsr tarixinin öyrənilməsində elmi əhəmiyyəti və dəyərinin miqyası aşkara çıxarılmışdır;

**Tədqiqatın metodoloji əsası**. Tədqiq olunan problemin araşdırılmasında tarixi yanaşma, tənqidi-analitik üsuldan, müqayisəli təhlil, tarixi gerçəkliklərin aydınlaşdırılmasında prosesləri doğuran səbəb və nəticələrin əlaqəsi metodlarından istifadə edilmiş, dünya tarix elminin və vətən tarixşünaslığının son nailiyyətləri nəzərə alınmışdır.

**Tədqiqat işinin praktik əhəmiyyəti.** Tədqiqat işinin təcrübi əhəmiyyəti onunla izah edilə bilər ki, dissertasiyada istifadə olunmuş faktiki materiallardan və əldə edilmiş nəticələrdən universitetlərin tarix fakültələrində «XVII əsrdə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatı» mövzusunda ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində geniş istifadə oluna bilər.

**Mövzunun aprobasiyası.** Tədqiqat işinin müxtəlif aspektləri üzrə müəllifin elmi məqalələri BDU və respublikanın müxtəlif elmi məcmuələrində nəşr edilmişdir. Dissertasiya BDU-nun «Azərbaycan tarixi (təbiət

fakültələri üzrə)» kafedrasında müzakirə edilərək müdafiəyə təqdim olunmuşdur.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, 9 paraqrafı əhatə edən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş»** hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi əsaslandırılmış, mövzunun öyrənilmə səviyyəsi araşdırılmış, mənbə bazası təhlil olunmuş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdiriləndən sonra metodoloji əsası aydınlaşdırılmış, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Tədqiqat işinin "**XVII ƏSRİN 30-60-CI İLLƏRİNDƏ AZƏRBAYCANIN İQTİSADİ VƏZİYYƏTİ JAN BATİST TAVERNYENİN «SƏYAHƏTNAMƏ»SİNDƏ** adlanan birinci fəsli üç paraqrafdan ibarətdir. Birinci paraqraf " **Kənd təsərrüfatı"** adlanır. XVII əsrin 30-60-cı illərində Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən birini kənd təsərrüfatı təşkil edirdi. 1639-cu ildə Səfəvi-Osmanlı müharibələri başa çatdıqdan sonra iqtisadiyyatın bərpası üçün əlverişli şərait yaranmışdı[1]. Nəticədə XVII əsrin ortalarında Azərbaycanın iqtisadi inkişafında müəyyən dirçəliş müşahidə olunurdu. Məhz belə bir tarixi dövrdə Azərbaycana gəlmiş J.B.Tavernyenin «Səyahətnamə»sindəki məlumatlar həmin dövr Azərbaycan gerçəkliklərini bütün dolğunluğu ilə əks etdirir.

XVII əsrdə də Azərbaycanda kənd təsərrüfatının bütün sahələrinin taleyi süni suvarma şəbəkələrindən asılı idi. J.B.Tavernye yazır ki, «Bu ölkədə çoxlu kəhriz və su quyusu vardır. Əkin yerləri kəhrizlərlə suvarılır. Lakin bölgədə baş vermiş müharibələr və baxımsızlıq üzündən son 80 il ərzində yalnız Təbriz və onun ətrafında 400 suvarma xətti (kəhriz) quruyub sıradan çıxmışdır»[2].

XVII əsrdə Azərbaycanın əkinçilik təsərrüfatında aparıcı yeri taxılçılıq tuturdu. Dənli bitkilər, xüsusilə də buğda, arpa istehsalı həm ölkənin daxili tələbatını ödəyir, həm də xaricə ixrac olunurdu. Tavernye Azərbaycanın dağlıq bölgələrində gözəl buğda zəmilərinin çoxlu məhsul verdiyini yazmışdır. [3] XVII əsrdə Azərbaycanın kənd təsərrüfatında ipəkçilik də xüsusi yer tuturdu. Tavernye Gilan və Mazandaranla yanaşı,

---

[1] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII вв. с.107.

[2] Səfərname-yi Tavernye, s.362-363; Azərbaycan tarixi, 7 cilddə, III c., s. 271;

[3] Səfərname-yi Tavernye, s. 66.

Azərbaycanın Qarabağ və Şirvan bölgələrində yüksək keyfiyyətli xam ipək istehsal edildiyini göstərmişdir. A.Oleari Səfəvi dövlətində ildə orta hesabla 10-20 min tay xam ipək, J.Şarden isə 22 min tay xam ipək istehsal edildiyini yazmişdir[1]. Tavernye Azərbaycanın bağçılıq təsərrüfatı haqqında yazır: «Bu ölkədə hər cür meyvə vardır. Burada bağlar suvarıldığına görə alma, armud, nar, albalı, gilas, şabalıd, ərik, badam yetişir»[2]. Tavernye Azərbaycanda üzümçülük, üzüm emalı, şərabçılıq haqqında da məlumatlar vermişdir. O, Azərbaycanda boyaq otu - **marena** istehsalı haqqında yazır: "Culfanın cənubunda ronas yetişir, ronası qırmızı rəng əvəzinə işlədir və bütün parçaları onunla boyayırlar". [3] XVII əsrdə heyvandarlıq da Azərbaycan kənd təsərrüfatının aparıcı sahələrdən biri idi. Heyvandarlıq təsərrüfatının əsasını iri buynuzlu mal-qara və qoyunçuluq təşkil edirdi. Tavernye qoyunçuluq təsərrüfatı haqqında yazır: «Qoyun sürüləri daha çox Azərbaycanda saxlanılır. Səfər zamanı elə bir gün olmurdu ki, biz bir-neçə qoyun sürüsü görməyək. Onların hər birində min başdan çox qoyun var idi»[4]. Tavernyenin məlumatlarını A.Oleari, Y.Streys və b. səyyahların gündəlikləri də təsdiq edir[5].

Ticarətdə dəvə karvanlarının rolunu heç bir nəqliyyat vasitəsi ilə əvəz etmək mümkün olmadığından Azərbaycanda dəvəçilk inkişaf etmişdi. Tavernye dəvələri iki növə bölərək, Azərbaycanda saxlanılan dəvələrin ən ağır yükləri daşıdıqlarını göstərmişdir[6]. Şardenin böyük dəvələrin hər birinin 1200-1300 livr (600-650 kq – *Ə.H.*) yük daşıya bilməsi haqqındakı qeydləri[7], Tavernyenin dəvəçəlik təsərrüfatı haqqında məlumatlarını təsdiq edir. XVII əsrdə atçılıq təsərrüfatı da inkişaf edirdi. Atlardan süvari qoşunda, ticarət əməliyyatları zamanı nəqliyyat, həmçinin kənd təsərrüfatında qoşqu vasitəsi kimi geniş istifadə olunurdu.

Birinci fəslin ikinci paraqrafı **"Sənətkarlıq"** adlanır. XVII əsrdə Azərbaycan iqtisadiyyatının mühüm sahələrindən birini sənətkarlıq təşkil edirdi. Azərbaycan şəhərləri iqtisadi həyatda mühüm rol oynayan əsas sənətkarlıq mərkəzləri idi. Orta əsrlərdə Azərbaycanda 44 növ sənət və

---

[1] A.Oleari. Göstərilən əsəri, s.791; Səfərname-yi Şarden, c. 4. s. 368-369.
[2] Səfərname-yi Tavernye, s. 368, 602.
[3] Səfərname-yi Tavernye, s.701; Tavernye J.B. Seyahetnamesi, s.87.
[4] Səfərname-yi J.Tavernye, s.603; Süleymanov N. Göstərilən əsəri. s. 49;
[5] A. Oleari. Göst. əsəri, s.582; Y.Streys, Göst. əsəri, s. 286;
[6] Səfərname-yi Tavernye, s.603.
[7] Səfərname-yi Şarden, c.2. s.745-746.

peşə mövcud olmuşdur[1]. XVII əsrdə Azərbaycanda manufaktura tipli karxana və ya iri sənətkar emalatxanaları mövcud idi. Tavernye yazır ki, karxanalarda yüksək keyfiyyətli qızılı, gümüşü xalçalar, qızıl saplı parçalar, məxmər, tafta, ipək parçalar, həmçinin zirehli geyimlər, ox, kaman və başqa silahlar istehsal edilirdi[2]. J.Şarden göstərirdi ki, toxuculuqla məşğul olan sənətkarlar elə dəzgahlar, çarxlar və cəhrələr ixtira etmişlər ki, bu sənət sahəsində hətta bizim (fransızların) işlətdiyimiz maşınlar və dəzgahlarla rəqabət apara bilərlər[3]. Tavernye Təbrizdə çox mahir sənətkarların ipək parça ilə yanaşı, pambıq və yundan müxtəlif çeşidli yaxşı və gözəl parça toxuduqlarını yazmışdır.

XVII əsrdə metalişləmənin müxtəlif növləri üzrə dövlət karxanaları təşkil edilmişdi. Tavernye yazır ki, sənətkarlar şəmşir, bıçaq kimi silahların tiyəsini kükürd cövhəri ilə hamarlamaq və parıldatmaqda çox mahirdirlər və Kəlküttədən polad gətirib, ondan silah düzəldirlər. XVII əsrdə Azərbaycanda dəmirçilik də inkişaf etmişdi. Tavernye yazır: Təbrizdə sənətkarlarların əksəriyyəti dəmirçilərdir. Bu sənətkarlar mişar, balta, çaxmaq düzəldir, bir çox sənətkarlar isə qapı və pəncərə qıfılı hazırlayırlar. Tavernye misgərlərin mislə yanaşı, qızıl və gümüşdən dairəvi boşqab, sini, məcməyi və s. kimi mətbəx avadanlıqları düzəltdiklərini də qeyd etmişdir[4].

Təbriz şəhərində zərgərlərin çox olduğunu göstərən səyyahın fikrincə, Səfəvi ərazisindəki zərgərlər qızıl üzük düzəltməyi bacarmalarına baxmayaraq yalnız gümüş üzük düzəldirlər. XVII əsrdə Azərbaycanda dabbaqlıq, sərraclıq, pinəçilik, dülgərlik və s. sənətləri də inkişaf etmişdi. Tavernye Səfəvi dövlətinin ərazisində «Sağrı saz», «dəri aşılayan» və «tumackar» kimi sənətkarların xeyli çox olduğunu, bu sahələr üzrə sənətkarların ixtisaslaşdığını, yəhər və yüyən düzəldən sərracların Avropa sənətkarlarından daha məharətli olduqlarını yazmışdir. Tavernye dülgərlərin qapı və şəbəkəli pəncərələr düzəltməkdə mahir olub, kiçik taxta parçalarını ustalıqla bir-birinə birləşdirə bildiklərini, lazımi alətləri olmasa da, çox yaxşı iş gördüklərini yazmışdır.[5]. Səfəvi ərazisində çini qab istehsalını bu ölkənin **əla növ sənayesi** adlandıran səyyaha görə buradakı çini qablar Fransa çinisindən parlaq olub, tez dağılmır və qızmırdı.

---

[1] Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана XVII в. s. 42-43.
[2]Səfərname-yi Tavernye, s.596-607.
[3] Səfərname-yi Şarden, c. 2. s. 895.
[4] Səfərname-yi Tavernye, s. 67, 379; Süleymanov N. Göst. əsəri, s. 99.
[5] Səfərname-ye Tavernye, s. 596-597.

Tavernye Səfəvi dövlətində kağızın pambıqdan, mürəkkəbin isə mazı (mürəkkəb qozu), kömür tozu və qurumdan düzəldildiyini yazmışdır. Səfəvi dövlətində çap işi rəvac tapmadığı üçün kitablar əl ilə yazılırdı və xəttatlıq sənəti böyük əhəmiyyət kəsb etdirdi. Tavernyenin gündəliyində saatsazlıq peşəsi haqqında da qısa məlumat verilir. Tavernyenin verdiyi məlumatlardan bəlli olur ki, Azərbaycanda beşik, cəhrə və s. məişət əşyaları düzəldən səyyari sənətkarlar da olmuşdur.

Birinci fəslin üçüncü paraqrafı **"Ticarət"** adlanır. Azərbaycan Asiya və Avropanı birləşdirən beynəlxalq ticarət yollarının qovşağında yerləşirdi. Böyük ipək yolunun Azərbaycan ərazisindən keçən şaxəsi Çini, Şərqi Türküstanı, Hindistanı və Azərbaycanı İstanbul, Azov körfəzi, Aralıq və Qara dəniz limanlarındakı ticarət mərkəzləri ilə bağlayırdı[1]. Şərq və Azərbaycan mallarının bir hissəsi Trabzon və Hələb vasitəsilə Qərbə daşınırdısa, digər bir qismi Təbriz-Bursa yolu ilə aparılırdı.

XVII əsrdə Səfəvi dövlətinin əsas iqtisadi və siyasi mərkəzlərindən olan Azərbaycan Hindistan, Osmanlı dövləti, Rusiya ilə birbaşa, Hörmüz limanı – Hind okeanı və Xəzər-Volqa ticarət yolları vasitəsi ilə bir sıra Avropa ölkələri ilə ticarət əlaqələri saxlayırdı.Tavernye Hindistan ərazisindən Səfəvi dövlətinə gedən ticarət yolları, Osmanlı ərazisindən Səfəvi dövlətinə gedən üç karvan ticarət yolu [2] haqqında çox qiymətli məlumatlar vermişdir. Tavernye İrəvanı Təbrizlə, Təbrizi Səfəvi dövlətinin daxili əyalətləri və Hörmüz limanı, eləcə də Azərbaycanın cənub şəhərlərini bir-biri ilə və Səfəvi dövləti ərazisindəki digər şəhərlərlə birləşdirən yerli əhəmiyyətli ticarət yolları haqqında da ətraflı məlumatlar vermiş, Gilan-Ərdəbil və Şamaxı-Ərdəbil marşrutlarının da mühüm rol oynadıqlarını qeyd etmişdir[3].

Tavernye Səfəvi dövlətində daxili və xarici ticarətin bütün sahələri ilə bağlı dövlət siyasəti haqqında əhəmiyyətli bilgilər vermişdır. İrəvandan Təbrizə səfər edən Tavernye Naxçıvan yaxınlığından keçən karvanın hər dəvə yükündən 10 abbasi rahdari alındığını, bu pulların yolların təhlükəsizliyinə sərf edildiyini yazmışdır[4]. Topdansatış mərkəzləri olan karvansaralar ticarətin təşkilində mühüm rol oynayırdı. Tavernye karvansaraları Şərq

---

[1] Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI - XIX вв. с. 29-32.
[2] Tavernye J.B. XVII asr ortalarında Türkiye üzerinden seyahat. s. 25-33, 49-56, 89.
[3] Yenə orada, s. 54, 63, 76.
[4] Yenə də orada, s. 67.

ölkələrinin mehmanxanaları adlandıraraq onların Avropa otellərindən xeyli fərqləndiyini qeyd etmişdir[1].

XVII əsrdə daxili ticarət əsasən şəhər bazarlarında cəmləşmişdi. Təbrizin Osmanlı, Rusiya, Hindistan və Fars arasında yerləşdiyini qeyd edən səyyah orada çoxlu ticarət mallarının olduğunu, Gilan və digər yerlərdən gətirilən ipək, yaxşı və ucuz atların hesabına ticarətin xeyli inkişaf etdiyini göstərmişdir. Səyyah Gilan və Şamaxıdan hər il Ərdəbilə 800-900 dəvə yükü ipək gətirildiyini, Şamaxı və Gilandan İzmir və İstanbula gedən ticarət yollarının Ərdəbildən keçdiyini göstərmişdir[2].

Səfəvi ipəyi əsasən Osmanlı ərazisi ilə Avropaya ixrac olunurdu. Tavernye yazır: «Şamaxı, Gəncə və Tiflisdən Ərzincana ipək gətirirlər... Gilan ipəyinin hamısı Təbrizə gətirilir. Təbrizdən isə Ərzuruma, oradan isə Hələb və İzmirə, bu şəhərlərdən isə Avropaya aparıb satırlar». Şamaxı, Gəncə və Tiflisdən Təbrizə iki növ ipək gətirilir ki, onun nazik, daha incə olanı «şərbafi», nisbətən qalın olanı isə «ərvəş» (ərəş – *Ə.H.*) adlanır. Şərbafi ipəyinin qiyməti 18, ərvəş ipəyinin qiyməti isə 10 eku (ekyu – fransız pul vahidi) idi[3]. Xam ipəklə yanaşı Səfəvi ərazisindən Hindistana və Osmanlıya yüksək keyfiyyətli zərli, qızıl və gümüş saplardan toxunmuş parçalar, meyvə və müxtəlif növ meyvə quruları da ixrac olunurdu. Tavernye yazır: «Quru meyvələrin çoxu Məd (Azərbaycan) ölkəsində hazırlanır ki, onun bir hissəsini Toqata, bir qismini Diyarbəkrə, Ninəva və Bağdada daşıyırlar. Tavernye Səfəvi ərazisindən Hindistana və Osmanlı dövlətinə dəvə, at, qatır və qoyun ixrac edildiyini yazmışdir[4].

Dissertasiyanın II fəsli "**SOSİAL MÜNASİBƏTLƏR VƏ İDARƏÇİLİK SİSTEMİ**" adlanır və üç paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafı "**Sosial münasibətlər**" adlanır. Tavernye Səfəvi dövlətində əhalinin sosial strukturunu Avropadakı silki quruluşa uyğun olaraq üç təbəqəyə bölmüşdür. Birincisi şəmşir əhlidir: bura səltənət sarayının üzviləri olan əşrəflər-kübarlar, xanlar və yaxud vilayət hakimləri, həmçinin bütün qoşun əhli daxildir. Əhalinin ikinci təbəqəsi qazılar və qanun yazanların daxil olduğu qələm əhlindən, üçüncü təbəqəsi isə tacir, sənətkar və zəhmətkeşlərdən ibarətdir. Səyyah şəmşir əhli kateqoriyasına baş vəzir, nazir, vaqiyənəvis, eşikağasıbaşı, həkimbaşı, münəccimbaşı,

---

[1] Səfərname-yi Tavernye, s.122..
[2] Tavernye J.B. XVII asr ortalarında..., s.73-76; Tavernye J.B. Seyahetnamesi, s. 97;
[3] Səfərname-yi Tavernye, s. 35-36.
[4] Yenə orada, s. 598, 602-603.

divanbəyi, darğa, vilayət hakimləri olan xanları, sultanları və s., əhalinin ikinci təbəqəsinə dövlət kargüzarlarını, maliyyə işçiləri, din xadimləri və elm sahiblərini daxil edərək, onların hər biri haqqında qısa məlumat versə də, üçüncü təbəqəyə daxil olan sənətkar, tacir və zəhmətkeşlər haqqında çox az bilgi vermişdir[1].

Sosial münasibətlər sistemində əsas yer tutan torpaq mülkiyyətinin formalarına Tavernye «Səyahətnamə»sində ayrıca yer ayırmamış, ona müxtəlif mənsəblərin şərhi zamanı ötəri olaraq toxunmuşdur. Səyyah qeyd edir ki, ölkə ərazisinin çox hissəsi şaha aiddir və müxtəlif adamlar onları icarə edirlər. Tavernye yazır ki, Səfəvi ölkəsində vəqf əmlakı iki cürdür. Birisi şahlıq vəqf əmlakı, digəri müxtəlif əmlak. Şahlıq vəqf əmlakının sədri «sədrolxas», digər əmlakın sədri «sədrolmoqufat» adlanır. Tavernye bu məlumatında dolaşıqlığa yol vermişdir. Bu dövrdə vəqf əmlakı iki cür olsa da səyyahın qeyd etdiyi kimi deyil, vəqfi-xeyri və vəqfi-əhli adlanan torpaq mülkiyyətindən ibarət idi[2]. Tavernye soyurqal, tiyul, mülk torpaq mülkiyyətləri haqqında ətraflı məlumat verməmişdir.

Tavernyenin gündəliyində əsasən boniçe, rahdari, peşkəş vergiləri və ticarət mallarından alınan gömrük rüsumları qeyd edilmişdir. Səyyah sənətkarların bir neçə qrupdan ibarət olub şaha boniçe adlı vergi verdiklərini yazmışdır. Səyyahın məlumatına görə dövlətin gəlir mənbələrindən biri də mal və əmtəə ticarətindən gömrük vasitəsi ilə əldə olunan mənfəətdir. İran körfəzinə daxil olan ticarət mallarının dəyərinin 10 faizi, bəzi hallarda 16 faizi həcmində gömrük rüsumu ödənilirdi. Şah II Abbasın hakimiyyəti dövründə Bəndər Abbas və Bəndər Qonq limanlarından yığılan illik gömrük rüsumunun ümumi məbləği 24 min tümənə çatırdı. XVII əsrdə Səfəvi dövlətinin mühüm gəlir mənbələrindən biri də tənbəki vergisi idi. Tənbəki vergisi hesabına şah xəzinəsinin illik gəlirləri İsfahan şəhəri üzrə 40 min, Təbriz şəhəri üzrə 20 min, Şiraz üzrə 12 min tümənə bərabər idi[3].

Ticarət adamı olduğundan Səfəvi dövlətində pul tədavülü və sikkə zərbi ilə maraqlanan Tavernyenin məlumatına görə, Səfəvi dövlətində abbasi, mahmudi, şahı, bisti və qazıbəyi adlanan pul vahidləri dövriyyədə idi. Dövriyyədə olan Səfəvi pullarının əksəriyyətini gümüş sikkələr təşkil edirdi və çox nadir hallarda qızıl sikkələr buraxılırdı[4].

İkinci fəslin ikinci paraqrafı **“Mərkəzi idarəetmə sistemi”** adlanır.

---

[1] Səfərname-yi Tavernye, s. 571-595.
[2] История Ирана с древнейших времен до конца XVIII века. Л., 1958, с. 293.
[3] Səfərname-yi Tavernye, s. 594-596, 883, 523.
[4] Yenə orada, s.136; Tavernye J.B. Seyahetnamesi, s.155.

Tavernye dövlət quruluşuna görə Səfəvi dövlətini tipik monarxiya kimi xarakterizə etmiş və şahın mütləq hakimiyyətə malik olub, təəbələrinin malının və canının sahibi olduğunu yazmışdır.[1] Mərkəzi idarəçilikdə şahdan sonra birinci şəxsin baş vəzir-«etimadəddövlə» adlandığını göstərən səyyah onun qələm əhli olub, bütün mülki və maliyyə məsələlərinə baxdığını bildirmişdir. Tavernye vaqiyənəvisi dövlətin ən böyük katibi adlandırmış, bu vəzifənin yalnız şaha çox yaxın olan şəxslərə verildiyini yazmışdır.

Tavernye mərkəzi maliyyə idarəsinin başçısının mustoufi əl-məmalik olduğunu göstərmiş və mustofilərin hamısını qələm əhli adlandırmışdır. Xəzinədarbaşı xəzinədə olan pulların qorunmasına cavabdeh idi. Səyyah eşikağasıbaşını Fransanın böyük təşriflər rəisinin vəzifəsinə oxşatmış və şah sarayında həkimbaşı, münəccimbaşı, süfrəçibaşı, şərabçıbaşı, məşəlçibaşı və s. vəzifələr haqqında da maraqlı məlumatlar vermişdir[2].

Tavernye Səfəvi dövlətində mərkəzi dini idarəyə sədrin rəhbərlik etdiyini, şeyx-ül islam və qazinin sədrə tabe olduğunu yazmışdir. Səfəvi idarəçilik sistemində polis rəisi funksiyasını darğa icra edirdi. Nizam-intizam yaratmaq, oğurluğun, qətl və qarətin qarşısını almaq, qumarxa-naları, meyxanaları aşkara çıxararaq onlara qadağa qoymaq darğanın əsas vəzifələri idi. Səfəvi ordusunun quruluşu və say tərkibi haqqında məlumatlar verən səyyaha görə bütün Səfəvi ordusunun generalı və baş komandanı sipəhsalar adlanır, bu rütbə yalnız müharibə dövründə qüvvədə olur, müharibə qurtardıqda bu mənsəb ləğv edilirdi. Tavernye Səfəvi ordusunun qorçular, qulamlar, tüfəngçilər, şah qvardiyası, topçular və hərbi dəniz donanmasından ibarət olduğunu, topçubaşının topxana və hərbi dəniz donanmasına başçılıq etdiyini qeyd etmişdir[3].

Dissertasiyanın ikinci fəslinin üçüncü paraqrafı **“Yerli idarəçilik”** adlanır. Fərat çayından Qəndəhara, Qafqazdan Hind okeanına qədər geniş əraziləri əhatə edən Səfəvilər dövlətinin inzibati baxımdan 17 əyalətdən ibarət olduğunu göstən Tavernye yazırdı: «VI əyalət iki hissədən ibarətdir. Onlardan biri Xəzər sahilində yerləşən Şirvan əyalətidir. Mühüm şəhərləri Dərbənd, Bakı və Şamaxıdır. Digər əyalət isə Azərbaycandır. Təbriz, Ərdəbil və Sultaniyyə bu əyalətdə yerləşir»[4]. Qeyd edək ki, Səfəvi dövründə tarixi Azərbaycan ərazilərində Azərbaycan və Şirvanla yanaşı

---

[1] Səfərname-yi Tavernye, s. 569-571.
[2] Yenə orada, s.587-588.
[3] Yenə orada, s.581-585.
[4] Yenə orada, s. 585.

Gəncə-Qarabağ və Çuxur-Səd bəylərbəyliyi mövcud olmuşdur. Tavernye böyük əyalətlərin xan və hakimlər tərəfindən idarə olunduğunu qeyd etmişdir. Vilayətlər mahallara bölünürdülər. Mahal hakimləri vəzifəyə şahın fərmanı əsasında təyin edilir və işdən azad olunurdular[1].

Tavernye qeyd edir ki, hər bir şəhərdə şah tərəfindən təyin edilən divanbəyi fəaliyyət göstərir. O yalnız şahın hökmlərini icra edirdi. Divanbəyilər şəhər əhalisinin şikayət və ərizələrinə baxır, polis funksiyasını yerinə yetirirdi. Şəhər darğaları isə döyülmə, dava, qətl, cinayət işlərinə baxır və fahişəliyə qarşı mübarizə aparırdılar. Mənbələrdə darğanın ehdas, əsəs, möhtəsib, şəhnə, nəqib kimi köməkçilərinin olduğu göstərilsə də, Tavernye yalnız ehdas və möhtəsib haqqında qısa məlumat vermişdir. Ehdas gecələr küçələrdə gəzir, gecəyarısı küçədə şübhəli adam gördükdə, onu tutub zindana salırdı. Tavernye qeyd edir ki, hər şəhərdə şah tərəfindən təyin edilən bir kələntər vardır o, heç kimə tabe deyildir və şəhər əhalisini hakimin təzyiqlərindən qoruyur. Möhtəsib isə 2-3 nəfər müavini ilə birlikdə hər həftənin ilk günü bazarda qiymətləri müəyyən edirdi.

Dissertasiyanın üçüncü fəsli **"TAVERNYENİN "SƏYAHƏTNAMƏ"SİNDƏ AZƏRBAYCANIN MƏDƏNİ HƏYATI"** adlanır və üç paraqrafdan ibarətdir. Üçüncü fəslin birinci paraqrafı **"Maarif və elm"** adlanır. Tavernyenin «Səyahətnamə»sində Azərbaycanın mədəni və mənəvi mədəniyyəti haqqında çox maraqlı məlumatlar verilmişdir. «Səyahətnamə»də əksini tapmış mühüm məsələlərdən biri Səfəvilər dövlətində işlədilən dil problemidir. Tavarnye qeyd edir ki, Səfəvi dövləti əhalisi öz ölkələrinin dilini dörd qismə bölürlər. Fars məlahət, türk siyasət, ərəb fəsahət dilidir; qəbahət dili isə kəndlilərin, dehqanların danışdığı dildir. Səyyah göstərir ki, ali təbəqələr arasında işlədilən fars dilinin lüğət tərkibinin bir hissəsi ərəb sözlərindən ibarətdir və az yayılmışdır. Latın dili Avropada olduğu kimi, ərəb dili də Şərqdə elm və qanun dili rolunu oynayır[2]. Tavernyenin Səfəvi dövlətində saray adamlarının, siyasət dilinin türk dili olduğunu göstərməsi XVII əsrin 30-60-cı illərində türkcənin dövlət dili statusunu qoruyub saxladığını sübut edir. Səyyah Səfəvi ölkəsinin türkcəsinin Osmanlı türkcəsindən daha lətafətli və şirin olduğunu vurğulamışdır. Tavernyenin Səfəvi şahına müraciət olunarkən həmişə Azərbaycan türkcəsindən istifadə olunduğunu qeyd etməsi XVII əsrdə Səfəvi dövlətində ərəb və fars dilinə nisbətən türk dilinin mühüm statusa malik olduğunu bir

---

[1] Bayramlı Z.H. Səfəvi dövlətinin quruluşu və idarə sistemi, s.164-165; Рахмани А.А. Азербайджан в конце XVI и в XVII вв., s.90.

[2] Səfərname-yi Tavernye, s.598.

daha təsdiq edir. Səfəvilər dövlətinin dili haqqında Tavernyenin məlumatlarını dövrün digər səyyah gündəliklərinin bilgiləri də təsdiqləyir.

1617-ci ildə Səfəvi ərazisinə daxil olan Pyetro della Valle Səfəvi əsgərlərinin türk dilində danışdığını qeyd edərək göstərir ki, türk dili İranda (Səfəvidə – *Ə.H.*) fars dilindən daha çox işlədilir, dövlət və hərb dilidir[1]. Rus taciri F.Kotov Dərbəddən Həmədana qədər ərazilərin əhalisinin türk dilində danışdığını, ticarət əməliyyatları zamanı türk say vahidlərindən istifadə edildiyini göstərmişdir[2]. XVII əsrin 30-cu illərində Səfəvi ərazisində olmuş A.Oleari Azərbaycan əhalisi ilə yanaşı, farsların da öz doğma dillərindən daha çox türk dilində danışdıqlarını qeyd etmişdir[3]. XVII əsrin 70-ci illərində Səfəvi dövlətində olmuş J.Şarden yazır: «Saray əhli, hərbçilər, böyüklər, yüksək mənsəb sahiblərinin xanımları evlərində türkcə danışırlar. Ona görə ki Şah və sülalə üzvləri bütün əhalisinin dili türkcə olan Azərbaycandandırlar»[4]. E.Kempfer də Səfəvi dövlətində türk dilinin mövqeyi ilə bağlı yazır ki, İsfahan sarayında işlək olan türk dili Səfəvi sülaləsinin doğma ana dilidir. Bu dil böyüklərin və hörmətli adamların evlərinə yayılmış və şahın mərhəmətini qazanmaq istəyənlərin hamısı bu dildə danışırlar. Bu gün iş o yerə çatmışdır ki, başının sağ qalmasını istəyən hər kəs türk dilini bilməlidir[5]. Bütün bu faktlar XVI əsrin sonundan Səfəvi dövlətinin farslaşması haqqındakı iddiaları əsaslı şəkildə təkzib edir[6].

XVII əsrdə Azərbaycanda maarif sistemi məktəb və mədrəsə təhsili ilə təmsil olunurdu. J.B.Tavernyeyə görə XVII əsrdə Səfəvilər dövlətində təhsilin üç əsas növü – məktəb, mədrəsə və fərdi təhsil mövcud olmuşdur. İbtidai təhsil kütləvi xarakter daşıyırdı və ibtidai təhsil ocaqlarını bitirən şagirdlər təhsillərini mədrəsə adlanan məktəblərdə davam etdirirdilər. Varlı ailələrin uşaqları müəllimlərin nəzarəti altında öz evlətində təhsil alırdılar[7]. Azərbaycanda fəaliyyət göstərən mədrəsələrin bir qismi dövlət, bir qismi isə vəqf əmlakı hesabına maliyyələşdirilirdi. E.Çələbinin məlumatları XVII əsrin ortalarında Azərbaycanda xeyli sayda mədrəsələrin olduğunu göstərir[8]. Tavernye yazır ki, məktəblərdə bir ustad bütün elmləri tədris edir.

[1] پیترو دلاواله، سفرنامه پیترو دلاواله، ترجمه و حواشی از شعاع الدین شفا، تهران: 1348، 9 ص
[2] Хожение Купца Федота Котова ... с. 95.
[3] A. Oleari, Göst. əsəri, s. 658.
[4] Səfərname-yi Şarden, c. 3. s. 946.
[5] در دربار شاهنشاه ایران، تالیف انگلبرت کمپفر، ترجمه کیکاووس جهانداری، ص 167
[6] Azərbaycan tarixi, III cild, s.250-252; Рахмани А.А. Азербайджан в конце XVI и в XVII вв., с. 26-38.
[7] Səfərname-yi Tavernye, s.592.
[8] E. Çelebi. Seyahetname, VII kitab, s.7, 35, 83.

Mədrəsələrdə ilahiyyat, məntiq, fizika, riyaziyyat, təbabət, poeziya, tarix, coğrafiya, astrologiya və s. elmlər tədris olunurdu. Əgər onlar fransızların metodu ilə oxusaydılar, səhih müəllimləri olsaydı, bütün elmləri birdən öyrənməyə başlamasaydılar, həqiqi alim olardılar. Bu nöqsanlara baxmayaraq onlar məntiq, ilahi hikmət, fəlsəfə və riyaziyyat sahəsində yüksək məqamlara malikdirlər. Səyyah qeyd edir ki, Səfəvi dövlətində dərsliklərin əksəriyyətinin müəllifi Xacə Nəsrəddin Tusidir. Onlar təlim və tədris prosesində Aristotelin, Ptolomeyin, Evkilidin əsərlərindən və Arximedin bəzi kəşflərindən də istifadə edirlər. Mədrəsələrdə tibb elmi də tədris edilir və bu sahədə Əbu Əli ibn-Sinanın əsərlərindən istifadə olunurdu. Əsas tarix dərsliyi isə Mirxondun «Rövzət əs-Səfa» əsəri idi. Tavernye Səfəvi əhalisinin poeziyaya xüsusi maraq və həvəs göstərdiklərini vurğulamış, şerlərin dərin məzmun, mükəmməl təşbehlərlə zəngin olduğunu qeyd etmişdir.[1].

Üçüncü fəslin ikinci paraqrafı **"İncəsənət"** adlanır. Azərbaycan incəsənətinə xüsusi diqqət yetirən Tavernye nadir memarlıq abidələri ilə məhşur olan Təbrizin böyük meydanı ətrafında tikiliş baxımından misilsiz olan 4-5 məscid, Mirzə Sadiq karvansarası, «Şam Qazan» kompleksi və digərləri haqqında maraqlı məlumatlar vermişdir. Tavernye Ərdəbildə Şeyx Səfi məqbərə kompleksinin memarlıq quruluşu haqqında geniş məlumat vermişdir. Səyyah Naxçıvanın dağıdılmış abidələrini, Culfa və dörd karvansaraya malik olan Əsadabad şəhərlərini ətraflı təsvir etmişdir. Qəzvini böyük şəhər adlandıran səyyah şah sarayına aid olan 7-8 evdən başqa qalan binaların pis vəziyyətdə, ətrafı bazarla əhatə olunmuş üç karvansaranın, onlardan birinin isə çox rahat və böyük olduğunu vurğulamışdir[2]. Sultaniyyəni kənd adlandıran Tavernye keçmişdə burada olan yaxşı məscidlərin, indi isə xarabalıqlarının qaldığını vurğulamışdır. Səyyah Şamaxıda oranın xanının tikdirdiyi saraydan başqa görməli bir binanın olmadığını yazmışdır.[3] Tavernyedən fərqli olaraq Şamaxını mühüm ticarət mərkəzi kimi xarakterizə edən A.Oleari şəhərdə 6 məscid, 3 hamam, gözəl mədrəsə binasının olduğunu, E.Çələbi isə Şamaxıda 26 məhəllə, 40 məktəb, 7 mədrəsə, 7 hamam, 70 məscidin olduğunu qələmə almışdır[4].

Tavernyenin yazdığına görə XVII əsrdə Azərbaycan rəssamları miniatür, yəni sulu boya ilə kiçik, zərif və incə şəkillər çəkir, sonra çəkdikləri rəsmləri xüsusi növ boya və yaxud məstəki ağacının şirəsi ilə

---

[1] Səfərname-yi Tavernye, s. 590-591.
[2] Yenə orada, s. 68, 74, 55, 62-64, 77.
[3] Yenə orada, s. 80, 275.
[4] A.Oleari, Göst. əsəri, s.462-464; Evliya Çelebi. Seyahetname, II cild, s.297.

rəngləyir və bizim üçün tamamilə yad olan bir yağla cilalayırlar. Tavernye rəssamların gül, buta, quş və s. rəsmlərinin çəkilməsində çox məharətli olduqlarını, qeyd etmişdir [1]. XVI-XVII əsrlərdə Azərbaycanda musiqi əsasən üç növdən - hərbi, dini və əyləncə musiqisindən ibarət idi. Səyyahın yazdıqlarına görə bir dəstə muzdlu adam hər gün günəş çıxanda və batanda Təbriz meydanında yarım saat müddətində iri təbil və kərənaydan dəhşətli səslər çıxarırdılar. Bu mərasim Səfəvi məmləkətinin bütün şəhərlərində yerinə yetirilirdi[2]. Ancaq toy mərasimindən bəhs edən səyyah toy günü gəlinin və cehizinin saz və nağaranın müşayəti ilə bəy evinə aparıldığını yazmışdır. Tavernyedən fərqli olaraq A.Oleari və Şarden Azərbaycan musiqisi haqqında daha dolğun məlumatlar vermişlər.[3].

Üçüncü fəslin üçüncü paraqrafı **"Etnoqrafik məlumatlar"** adlanır. Tavernyeyə görə müqəddəs qurban bayramını qeyd etmək üçün Səfəvi sakinləri çox yaxşı dəvə alır və onu zər-ziba ilə bəzəyirlər. Şah məscidin meydanına gəldikdən sonra qurban kəsilərək əhaliyə paylanılır. Tavernye aşura mərasimini təsvir edərək göstərir ki, «aşura» günü mütəassib şiələr küçələri gəzərək fasiləsiz «Həsən-Hüseyn», «Həsən-Hüseyn» - deyə gün batanadək fəryad edirlər. Axşam dindar adamlar onları aparıb yedizdirirlər. Tavernye yazır ki, Səfəvi əhalisi münəccimləri böyük adam hesab edirlər və bütün məsələlər haqqında onlardan məsləhət alırlar. Səfəvi şahının yanında həmişə 4-5 münəccim olur ki, onlar saatın xoş və bəd anlarını qabaqcadan xəbər verirlər. Tavernye Səfəvi ərazisində hoqqabazlıq və kəndirbazlıq sənətinin də yüksək inkişaf etdiyini yazmışdır[4].

Tavernye Azərbaycan xalqının ailə-nigah münasibətlərinin ayrı-ayrı sosial təbəqələr arasında fərqli olduğuna diqqət yetirmişdir. Tavarnye yazır: «Nigah müqaviləsi əsasında qadın üçün məhr (başlıq) müəyyən edilir ki, bu əkin sahəsi, yaxud başqa bir şeydən də ibarət ola bilər». Toy günü gəlinin cehizini yük heyvanlarına yükləyib saz və nağara sədaları altında bəyin evinə aparırdılar. Tavernye yazırdı ki, bir sıra hallarda ər və arvad boşanmaq tələb edirlər ki, buna «talaq» deyirlər[5].

Səyyahın məlumatına görə Səfəvi məmləkətində al-əlvan rəngli paltarları çox sevdikləri üçün qəba bir, gödəkçə bir, şalvar isə başqa rəngdə olur. Onların ətəyi dizdən aşağı olan libasları qəba adlanır. Əhalinin

---

[1] Səfərname-yi Tavernye, s.379, 598.
[2]Yenə orada, s.70.
[3] A. Oleari. Göst. əsəri, s. 566, 610-611. Səfərname-yi Şarden, c. 2. s 321-327.
[4] Səfərname-yi Tavernye, s. 412, 416, 420
[5] Yenə orada, s. 643-644.

ortabab təbəqəsinin paltarları ingilis və holland mahudundan, ayaqqabıları isə tumac və şaqren dəridən hazırlanır. Qadın geyimləri haqqında çox cüzi məlumat verən səyyah, qadın ayaqqabılarının yaşıl, qırmızı, sarı rəngdə və ya naxışlı olduğunu göstərmişdir.

Tavernye Səfəvi əhalisinin gün ərzində yalnız bir dəfə bişmiş xörək yediklərini, naharlarının çörək, pendir, süd, üzüm şirəsi (doşab – *Ə.H.*), yemiş və digər meyvələrdən ibarət olduğunu, əhalinin mal ətindən çox az istifadə etdiyini, əsasən qoyun, çəpiş və toyuq ətinə üstünlük verdiklərini qeyd etmişdir. Tavernye onların ov ətini də az yediklərini, qaban ovladıqda isə onu xristianlara hədiyyə etdiklərini göstərmişdir[1]. E.Çələbi isə Təbriz xörəkləri içərisində müxtəlif növ çörəklərlə yanaşı, kəklik kababı, 40 növ ətirli plov, həlim aşı və s. xörəklərin məşhur olduğunu bildirmişdir[2].

Tavernye çörəyin yerli buğda unundan hazırlandığını, çörəklərin ağ və yaxşı olduğunu, onların üzərinə küncüt səpildiyini bildirmişdir. Səyyah mətbəxdə xörək qablarının çox hissəsinin misdən hazırlandığını, onların qalaylandığını və ağ rəngdə olduğunu bildirərək yazır ki, onların dinində qadağa qoyulduğu üçün gümüş qablardan istifadə etmirlər. Səfəvi şahlarının süfrəsində işlədilən qabların hamısının qızıldan olduğunu yazan Tavernye, bu ölkədə yerli istehsal olan çini qablardan da istifadə olunduğunu göstərmişdir. Səyyah sulu xörəklərin taxta qaşıqla içildiyini, düyü xörəklərinin və başqa yeməklərin əllə yeyildiyini bildirmişdir[3].

Dissertasiyanın **«Nəticə»** hissəsində aparılan elmi araşdırmalara yekun vurulmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.**

1.Karvansaraların Azərbaycanın iqtisadi həyatında yeri (J.B.Tavernyenin gündəliyi əsasında)//Tarix və onun problemləri// Bakı, 2002, №2, s.34-37.
2.Azərbaycanın mədəni həyatı Tavernyenin Gündəliyində // Tarix və onun problemləri// Bakı, 2004, № 4, s.36-40.
3.Fransız səyyahı Jan Batist Tavernyenin həyatı və onun «Səyahətnamə»si haqqında // Tarix və onun problemləri, Bakı, 2007, № 3, s.365-369.

[1] Səfərname-yi Tavernye, s. 624, 636, 662.
[2] Evliya Çələbi. Səyahətnamə, s. 26-27.
[3] Səfərname-yi Tavernye, s. 637-638.

4.Jan Batist Tavernyenin «Səyahətnamə»sində ticarət karvanları və ticarət yollarının təhlükəsizliyi haqqında // Tarix və onun problemləri // Bakı, 2007, əlavə 3, s. 98-100.
5.Jan Batist Tavernyenin «Səyahətnamə»sində Azərbaycanın təsərrüfat həyatının bəzi məsələləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü münasibətilə Tarix fakültəsi əməkdaşlarının elmi-praktik konfransının materialları. Bakı, 2008, s. 209-214.
6.Jan Batist Tavernyenin «Səyahətnamə»sində Azərbaycanın ticarət yolları haqqında. Aidə İmanquliyevanın 70 illik yubileyinə həsr olunmuş «Şərqşünaslığın aktual problemləri» mövzusunda Respublika elmi konfransının materialları. Bakı, 2009, № 2. s. 88-93.
7. XVII əsrin ortalarında Azərbaycanın əkinçilik təsərrüfatı ( Jan Batist Tavernyenin «Səyahətnamə»si əsasında). Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2009, № 2, s. 89-92.
8.Развитие ремесла в Азербайджане в средине XVII века ( по данным «Путешествия» Ж.Б.Тавернье). Журнал научных публикации аспирантов и докторантов. Курск, 2010, № 1, с. 89-92.
9.Азярбайъанда сосиал тябягяляр. (Jan Batist Tavernyenin «Səyahətnamə» si цзря). Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2011, № 1, s. 177-183.
10.Səfəvilər dövlətinin mərkəzi idarə sisteminin bəzi məsələləri J.B.Tavernyenin "Səyahətnamə"sində. Pedaqoji Universitet Xəbərləri, Bakı, №, 3, s. 95-100.
11.Внутренняя и внешная торговля Азербайджана в середине XVII в. (по данным «Путешествие» Ж.Б.Тавернье). «Гилея: научный вестник», //Национальний педагогичний университет имени М.П.Драгоманова и Украинська Академия Наук//, выпуск 64 (№ 9), Киев, 2012, с.203-207.

**А.Г.Гасанов**

# Социально-экономическая и культурная жизнь Азербайджана в «Путешествии» Ж.Б.Тавернье.

## Резюме

Диссертационная работа «Социально-экономическая и культурная жизнь Азербайджана в «Путешествии» Ж.Б.Тавернье» посвящена одной из актуальных и представляющих научный интерес для азербайджанской историографии. Представленная диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении обоснованы актуальность и научная значимость темы, указаны хронологические рамки исследования, степень изученности проблем и ее источниковедение, определены цель и задачи исследования. Также показаны методологическая основа диссертации, научная новизна и ее практическое значение.

Первая глава называется «Экономическое положение в Азербайджане в 30-60- гг. XVII в. по материалам «Путешествии» Ж.Б.Тавернье». В этой главе на основе сведений сочинения Тавернье исследованы вопросы отдельных отраслей сельского хозяйства и ремесленного производства, а также состояние внутренних и международных торговых путей, проводимая в связи с указанными проблемами политика Сефевидских правителей.

Во второй главе, названной «Социальные отношения и административная система» проведен, с привлечением синхронных источников, сравнительный анализ сведений Тавернье о социальном составе населения и социальных отнощениях в Сефевидской державе, формы землевладения и налоги, категории таможенных пошлин, государственный строй, права и полномочия чиновников различного уровня, о местной и центральной системе управления.

Третья глава называется «Культурная жизнь Азербайджана по данным «Путешествии» Ж.Б.Тавернье». В этой главе исследованы сведения Тавернье о языках используемых в Сефевидской державе, в том числе в Азербайджане, а также о системе образования и наук, ов отдельных сферах искусств, об архитектурных сооружениях Азербайджана, народных традициях и обрядах, о кулинарии, одежде, праздниках и других народных торжествах.

В заключительной части диссертации подводится итог исследованию, делаются обобщения и анализируются полученные результаты.

**A.H.Hasanov**

## The social-economic and cultural life of Azerbaijan in Jan Batist Tavernyen's "Seyahetname".

**SUMMARY**

The social-economic and cultural life of Azerbaijan in Jan Batist Tavernyen's "Seyahetname".

The dissertation "The social-ekonomic and cultural life of Azerbaijan in Jan Batist Tavernyen's Seyahetname" assumes importance in histography of Azerbaijan, and is about an urgent topic. Dissertation is consists of introduktion, three chapters, conclusion and literature list.

In introduktion are based the scientfik importance and urgency of topic, the standard of learning and sources are analysed, chronological limit is shown, and duty of the learning of dissertation are definend. Also, the methodological basis of studying, scientific innovation and practical importance are shown.

The title of first chapter is "The economic condition of Azerbaijan in 30-60$^{th}$ of XVII century in Jan Batist Taavernyen's Seyahetname". In this chapter was researched and analysed the areas of Azerbaijan agriculture and handicraft, also internal, external trade and Sefevi ruler's policy about these problems.

The title of second chapter is "Social relations and government administration". Here Tavernyen's information about the social structure and social relations of Sefevi population, property and tax, custom traiffs, state system, right and power of government officials, central and local government instution is compared with other sources of that period.

The title of third chapter is "The cultural life in Jan Batist Tavernyen's "Seyahetname". Here was analysed the Tavernyen's information about main language, public education system, sience, different areas of art, architectural monument of Azerbaijan cities, also national tradition of nation, holiday ceremonies, clothes and Azerbaijan dishes.

Conclusion includes the analyses of result as well as generalization and innovation according to this dissertation.

**Kağız formatı 60x84 1/16. Sayı 100.**

**"Bakı Universiteti" nəşriyyatı, Bakı, AZ 1148, Z.X.lilov, 23.**

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**АРШАД ГАСАН оглы ГАСАНОВ**

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ И КУЛЬТУРНАЯ ЖИЗНЬ АЗЕРБАЙДЖАНА ПО «ПУТЕШЕСТВИИ» ЖАНА БАТИСТА ТАВЕРНЬЕ

Специальность: 5503.02- Отечественная история

## А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени
доктора философии по истории

**Баку-2013**